

# ŞƏHLA QARAYEVA TƏQAÜD PROQRAMI

# İLLİK HESABAT

2020-2021

SGSP

Shahla Garayeva Scholarship Program

# BUGÜN BİZ

2018-ci ildən bəri gəldiyimiz ən yüksək nöqtədəyik. Hər kəsi təbrik edirik!

Şəhla Qarayeva Təqaüd Proqramı 2018-ci ildə Azərbaycandan olan **az təminatlı və təhsilə çıxışı məhdud olan qızların** təhsil imkanlarının genişləndirilməsi üçün yaradılıb. 2018-ci ildən bəri hər il gənc qızların təqaüd proqramından maliyyə yardımı və mentorluq proqramı şəklində faydalanması üçün iki və ya üç aylıq müddətə müraciət forması açıq elan olunur. Hər il müraciətçilərin sayı artır və bu il əvvəlki illərlə müqayisədə ən çox müraciət aldığımız il oldu.






# BUGÜN BİZ

2020-2021-ci il üçün Müraciət forması 20 fevral 2021-ci ildən 31 may 2021-ci il tarixləri arasında açıq elan olundu. Bu müddət ərzində bizə ümumilikdə **326 ərizə** daxil olub, halbuki **39 ərizəçi** (kişi namizədlər, düzgün və ya tam doldurulmamış ərizə formaları) seçim prosesinin ilk mərhələsində diskvalifikasiya edildi (ŞQTP-yə *müraciət etmək üçün uyğunluq tələblərindən biri Azərbaycanda yaşayan qadın olmaqdır*).

Ərizəçilərin təqaüd proqramına müraciət etmək məqsədi nümayiş etdirilən ehtiyacdan asılı olaraq dəyişir. Aşağıdakı cədvəldə göstərildiyi kimi, **qızların əksəriyyəti təqaüd proqramına ya təhsillərini davam etdirmək**, müxtəlif şəxsi ehtiyaclar ya da fərqli şəxsi inkişaf kurslarından (dil, ixtisasla bağlı və magistratura üçün hazırlıq kursları yararlanmaq üçün müraciət edirlər:



# ƏRİZƏÇİLƏRİN REGİONAL BÖLGÜSÜ

Ümumilikdə, **287 ərizəçinin müraciəti** nəzərdən keçirilib. Ərizəçilərin böyük əksəriyyəti Bakı (83), Gəncə (22), Abşeron (14), Bərdə (11), və digərləri Azərbaycanın başqa bölgələrindən müraciət ediblər:



# QADINLARIN TƏHSİLİ NİYƏ VACİBDİR?

Bu il **Rondine Beynəlxalq Sülh Laboratoriyası (RİPL)** ilə birlikdə qadınların təhsilinin əhəmiyyətinə həsr olunmuş ilk virtual dəyirmi masa tədbirimizi təşkil etdik. Tədbirdə ŞQTP-nın yaranışı və məqsədlərini, eləcə də Azərbaycan qadınlarının üzləşdiyi təhsil problemlərini müzakirə etdik. ŞQTP təqaüdçüləri də öz təcrübələri, eləcə də təhsil və proqramla bağlı perspektivləri haqqında danışdılar.
Gender məsələləri üzrə ekspert **Şəms Mustafayeva** qadınların təhsil alarkən qarşılaşdıqları çətinliklərdən, təhsilli qadınların cəmiyyətimizdə qarşılaşdıqları maneələrdən danışdı. Əməkdaş təşkilatımız - RİPL-ın nümayəndəsi **Elmira Teyyubova** təşkilatçılıq və əməkdaşlıq haqqında məlumat verdi, həmçinin Azərbaycanda qadınların təhsili ilə bağlı fikirlərini və hisslərini bölüşdü. Tədbirin sonunda iştirakçılar müzakirələr apardı və dinləyicilərin suallarını cavablandırdılar.
Həmçinin RIPL ilə birlikdə təşkilatın dostu və tərəfdarı olan **Loretta Galli** ilə daha bir virtual görüş təşkil etdik. Görüş zamanı o, İtaliyanın tanınmış qadınlarının uğurları, nailiyyətləri və həmçinin mübarizələrindən, COVID-19 pandemiyası zamanı məktəb və müəllimlərin əhəmiyyətindən danışdı. O, çıxışını gələcək əməkdaşlığımızın səbəbi olacaq bir təşəbbüs - “Street Foot”(Küçə Ayağı) sərgisi haqqında qısa məlumatla yekunlaşdırdı.




SGSP
Shahla Garayeva Scholarship Program

RONDINE
INTERNATIONAL
PEACE LAB

# TƏQAÜDÇÜLƏRLƏ GÖRÜŞ



ŞQTP 2018-ci ildən fəaliyyət göstərməsinə baxmayaraq, bütün kraudfandinq kampaniyası və bütün seçim prosesini onlayn şəkildə həyata keçirir. 4 il sonra, **3 oktyabr 2021-ci il tarixində**, nəhayət bütün illərin təqaüdçüləri ilə ilk fiziki görüş təşkil edə bildik.

Görüşün məqsədi qızların **həm digər təqaüdçüləri həm də bizləri tanımağı, əlaqə qurmağı və təcrübə mübadiləsi aparması** idi. Bu görüşə qədər ŞQTP komandası da bir-birilə yalnız virtual tanış idilər. Bu görüş həm komanda üzvlərinin bir-birlərini həm də mentorlarla daha yaxından tanış olmaq, gələcək planlar barədə daha ətraflı müzakirə aparmaq imkanını yaratdı.



İnanırıqki, təqaüdçülər bir-birləri ilə tanış olduqca, təcrübələrindən yararlandıqca, proqramın təklif etdiyi digər tərəflərini (mentorluq, təlim və s.) də nəzərə alsaq, Azərbaycanda təhsili, xüsusilə də **qızların təhsilini dəstəkləyən güclü bir cəmiyyət** qura bilərik.

# MENTORLUQ PROQRAMI

Təqaüdlə yanaşı qalib gənc qız və qadınlara bir il ərzində davam edən mentorluq proqramı təklif olunur. Təcrübəli mentorun olması karyera qurulması və inkişafı, həmçinin şəxsi keyfiyyətlərin təkmilləşdirilməsi və özünə inamın artması üçün çox önəmlidir. Ötən illərdə qaliblərdən aldığımız rəylərə əsasən mentorluq proqramı gənc qız və qadınların **şəxsi və peşəkar həyatlarında müsbət təsir göstərib.** Fərqli fəaliyyət sahələrindən olan və geniş peşəkar təcrübəyə malik mentorlarımız qalib gənc qız və qadınlara karyera və təhsildə istiqamətləndirir, məsləhətlər verir, gizli qalmış potensialın açılmasına yol göstərir. Mentorlarımızın əksəriyyəti könüllü olaraq mentorluğu 1 ildən sonra davam etdirir. ŞQTP ənənəvi olan **təkbətək (üz-üzə)** və mentorların bəzilərinin xaricdə yaşadığını nəzərə alaraq **virtual mentorluq** növünü tövsiyyə edir.



# KRAUDFANDİNQ KAMPANİYASI

İki ay davam edən kraudfandinq kampaniyası çərçivəsində Azərbaycanda yaşayan qız tələbələri təhsilini maliyələşdirmək üçün toplam **$6,641.64** (ABŞ dolları) məbləğində vəsait toplandı. Kraudfandinq kampaniyası çərçivəsində toplam ***66 ianə*** aldıq. Ötən ildə olduğu kimi, bu il də RBSL (Rondine Beynəlxalq Sülh Laborotoriyası) ilə olan əməkdaşlığımız kampaniyadan sonra daha ***13 ianə*** (toplam **$1,203.68**) qəbul etməyimizə imkan verdi. Bu səbəbdən, 2020-ci il üçün topladığımız ümumi məbləğ **$7,845.08** (ABŞ dolları) oldu. Aşağıdakı cədvəldə fərdi dəstəkçilərin ianə etdiyi məbləğə əsasən ianələrin miqdarı ilə tanış ola bilərsiniz:



# KRAUDFANDİNQ KAMPANİYASI

## İanəçilər

Əziz dostumuz **Fəridə Sadıxova Buyuran** ŞQTP üçün bir hərrac həyata keçirdi. ***"Pomegranates and Saffron: A Culinary Journey to Azerbaijan"*** ***(Nar və Zəfəran: Azərbbaycam Kulinariyasına Səyahət)*** kitabının bir ehtiyac nüsxəsini Kraudfandinq kampaniyamıza və Azərbaycanda az təminatlı gənc qadınların təhsilinə dəstək olmaq üçün hərraca çıxardı.






Bu il ianəçilərimizdən biri kraudfandinq kampaniyasından aldığımız ianələrə uyğun olaraq **1:1 nisbətində** daha böyük məbləğdə ianə edərək bizə və qızlarımıza dəstək oldu. (İanəçimiz anonim qalmağı üstün tutur.) Bu dəstək sayəsində biz ŞQTP mükafatçılarının sayını iki dəfə artıra bildik və **20 tələbənin** təhsil istəklərini dəstək ola bildik.

## Könüllülər

Bu il baş tutan görüşümüzdə təmannasız könüllü olaraq şəkil və videoların çəkilməsi və hazırlanması məsuliyyətini öz üzərinə götürən **Nərmin Həsənovaya** da öz təşəkkürümüzü bildiririk.

# MALİYYƏ HESABATI 2020-2021

| BÜDCƏ 2020-2021 (ABŞ DOLLARI)* | |
|---|---|
| GƏLİR | |
| Mənfəət qalığı | $158.56 |
| İctimai ianə kampaniyası | $6,659.61 |
| 1:1 İanə | $6,764.06 |
| Veb sayt ianəsi | $1,031.11 |
| CƏMİ GƏLİR | $14,613.35 |
| XƏRCLƏR | |
| İnzibati xərclər | $ 635.97 |
| Proqram xərcləri | $ 13,637.08 |
| CƏMİ XƏRCLƏR | $ 14,273.05 |
| ÜMUMİ MƏNFƏƏT (ZƏRƏR) | $ 340.30 |

*Gəlir və xərclər 30 oktyabr 2021-ci il tarixinə qədər olan rəqəmləri əks etdirir*

# SEÇİM PROSESİ 2020-2021

Ərizəçilərin seçim prosesi üç mərhələdə aparıldı: ***1) İlkin baxış; 2) İanəçilərin qiymətləndirməsi; 3) Müsahibə.*** Seçim mərhələsinin hər bir mərhələsi aşağıda daha ətraflı izah olunub.

**İlkin baxış**

Bu mərhələdə SGSP layihə qrupu **287 ərizəni** üç kateqoriyaya bölməklə nəzərdən keçirdi: *yüksək ehtiyac*, *orta ehtiyac*, *aşağı ehtiyac*. Ehtiyacın səviyyəsini müəyyənləşdirmək üçün ərizəçinin sosial və iqtisadi göstəriciləri istifadə olundu. Bütün ərizələrə ilkin baxışdan sonra ŞQTP layihə qrupu ikinci mərhələyə keçən **163 ərizəçini** müəyyənləşdirdi.

**İanəçilərin qiymətləndirməsi**

ŞQTP ianəçilərindən dörd nəfər və tərəfdaş təşkilatın (RİPL) bir üzvü təqaüdçülərin seçim prosesində iştirak etmək istədiklərini bildirdilər. Bu mərhələdə ianəçilər ərizələrdəki qısa cavab esselərinə baxış keçirib aşağıdakı iki meyar əsasında: **a) ən yüksək ehtiyac və b) gələcək haqqında məqsədlərin aydınlığı** - ərizəçilər arasından ən layiqli namizədlərin seçilməsində iştirak etdilər. İanəçilərin qiymətləndirməsi nəticəsində ŞQTP layihə qrupu, müsahibə mərhələsinə keçən **44 *finalisti*** müəyyənləşdirdi.

**Müsahibə**

ŞQTP ehtiyaca əsaslanan təqaüd proqramı olduğundan, layihə qrupu təqaüd fondunun tələbələrin ehtiyaclarına nə qədər uyğun olduğunu araşdırmaq məqsədi ilə fərdi telefon, “Zoom” və ya “Skype” vasitəsilə müsahibələr apardı. Bu mərhələdə ŞQTP layihə qrupunun məqsədi hər bir finalist ilə daha yaxından tanış olmaq və ərizə formasında olmayan sualları verməkdən ibarət idi. Diqqətli müzakirələr əsasında dörd günlük müsahibə prosesinin sonunda **20 təqaüdçü** seçildi.

# ŞQTP TƏQAÜDÇÜLƏRİ 2020-2021

**Aysel Əlizadə**

**Şəhər/Rayon:** Tərtər rayonu

**Ali məktəb:** Azərbaycan Dövlət Aqrar Universiteti

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Kolleci bitirdikdən üç il sonra Azərbaycan Dövlət Aqrar universitetinə qəbul oldum. Bütün sessiyalardan da uğurla keçdim və bu il məzun olacağım halda təhsil haqqı borcum qaldığı üçün diplomu götürmək üçün əmrim yazılmırdı. Ancaq Şəhla Qarayeva proqramı sayəsində məzun ola biləcəm. Diplomu götürdükdən sonra mühasibat uçotu və audit sahəsində biliklərimi artırmaq məqsədilə kurslara qoşulmağı düşünürəm. Şuşa şəhərində Mühasibat uçotu və audit xidmətləri göstərən şirkət açmaq niyyətindəyəm və bütün tələbələrə pulsuz təcrübə keçib onlara kömək etmək əsas məqsədlərimdəndir.

**İlahə Qarayeva**

**Şəhər/Rayon:** Yevlax rayonu

**Ali məktəb:** 2 nömrəli Bakı Baza Tibb Kolleci

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Müalicə işi-feldşer ixtisasında oxuyuram. Tədris Cərrahiyə Universitetində kardiologiya şöbəsində praktikaya getmişəm. ŞQTP-nı gördükdə bu lahiyəyə qoşuldum və uğurla keçdiyimi eşidəndə ailəm də, mən də çox sevindik. Öz minnətdarlığımı bildirirəm belə bir lahiyə hazırlayıb qızların təhsil planlarınında kömək olduğunuz üçün. Mənim gələcək təhsilim üçün çox önəmli addım idi bu lahiyə. Məktəbi bitirdikdən sonra ikinci təhsil almağı düşünürəm. Daha sonra xarici ölkədə magistratura oxumağı düşünürəm. Özümü inkişaf etdirmək üçün kitablar oxuyuram, təlimlərə qoşuluram. Düşünürəm ki, xarici dil çox önəmlidir. Xarici dillər öyrənib dil bacarığımı inkişaf etdirmək istəyirəm.

**Turanə Rəhmətova**

**Şəhər/Rayon:** Bakı şəhəri

**Ali məktəb:** Azərbaycan Dövlət İqtisad Universiteti

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** 2016-ci ildə Masallı rayon Qızılavar kənd Tam Orta Məktəbini bitirmişəm. Həmin il təhsil haqqını qarşılaya bilmədiyim üçün qəbul olduğum Xəzər Universitetində təhsil ala bilmədim. Növbəti il İqtisad Universitetinin Maliyyə fakültəsinə daxil oldum. Tək valideynli ailədən olduğum üçün təhsil haqqı xərclərimi özüm işləyərək qarşılayıram. Təqaüdü qazanmağımın gələcək addımlarımda mənə çox böyük dəstək olacağına inanıram. Hal-hazırda təhsilini aldığım maliyyə sahəsi üzrə gələcək karyera planlarımı qurmağı hədəfləyirəm. Bununla əlaqədar öz fərdi inkişafımı artırmaq məqsədilə dil və texniki biliklərimin üzərində daha çox işləməyi planlaşdırıram. Bundan əlavə təhsilimin davamını xarici ölkələrin birində almaq məqsədindəyəm. ŞQTP vasitəsilə gələcək hədəflərimə daha əmin addımlarla addımlayacağıma inanıram.

**Maral Məmmədova**

**Şəhər/Rayon:** Gəncə şəhəri

**Ali məktəb:** Azərbaycan Texnologiya Universiteti

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Hal-hazırda Azərbaycan Texnologiya Universitetində istehlak mallarının ekspertizası və marketinqi ixtisası üzrə təhsil alıram. Universiteti bitirdikdən sonra qismət olarsa magistr oxumaq istəyirəm. Öz ixtisasımı inkişaf etdirmək istəyirəm və hədəfim öz ixtisasıma uyğun sahədə çalışmaqdı. İxtisasım üzrə çalışarsam, əldə etdiyim gəlirlə gücüm çatdığı qədər ehtiyacı olanlara sizin kimi kömək etmək istəyərəm. Mən çətinlik çəkmişəm kimsə çəkməsin deyə bacardığım qədər kömək edərəm.

**Elnarə Qubadova**

**Şəhər/Rayon:** Bakı şəhəri

**Ali məktəb:** Bakı Avrasiya Universiteti

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Bakı Avrasiya Universitetində Regionşünaslıq (Yaxın və Orta Şərq üzrə) ixtisası üzrə təhsil alıram. Ailəm ilə birlikdə yaşayıram və ailəm 5 nəfərdən ibarətdir. Bir bacım və bir qardaşım var. Təhsilim və gələcəyim haqqında planlarım çox genişdir. Uşaqlıqdan bəri çəkdiyim əziyyətləri verdiyim qərarlarla, çalışdığım sahə ilə yekunlaşdırmaq fikrindəyəm. Öz ixtisasımı daha dərindən öyrənmək, bundan əlavə təhsilimi xaricdə davam etdirmək istəyirəm. Xarici ölkələrdən təhsil aldıqdan sonra geri qayıdıb Azərbaycan gənclərinə öz bilik, savad təcrübəmi bölüşmək istərdim. Gələcəkdə bu proqram kimi təqaüd proqramı yaradıb dəstəyə ehtiyacı olan gənclərə yardım etmək istərdim.

**Elnaz Muradova**

**Şəhər/Rayon:** Şamaxı rayonu

**Ali məktəb:** Bakı Biznes Universiteti

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Səkkizinci sinifdə atam tərəfindən məktəbdən çıxarılmağıma baxmayaraq, sonradan təhsilimi davam etdirib Şamaxı Dövlət Regional Kollecinə qəbul olmuşam (dövlət sifarişi ilə). Kollecdə əla qiymətlərlə oxuduğuma görə öz xərclərimi aldığım 75 manat təqaüdlə qarşılayırdım. Kolleci 2020-ci ildə bitirdikdən sonra subbakalavr kimi qeydiyyatdan keçdim və Bakı Biznes Universitetinə Mühasibat uçotu və audit ixtisası üzrə qəbul oldum. İnsanın məqsədləri böyük, yolu çətin olduğu zaman heç də qorxmamalı və "bunu etmək çox çətindir" tipli fikirlərdən uzaq olmalıdır. Mən indi düşünürəm ki, indiyə qədər deyə bilməyəcəyim qədər çətinliyim olmasına baxmayaraq yolun müəyyən hissəsini irəliyə doğru gələ bilmişəmsə, gələcək üçün də şəxsi və karyera həyatımda çox nailiyyətlər qazanacağıma inana bilərəm.

**Tərlan Adgözəlova**

**Şəhər/Rayon:** Sumqayıt şəhəri

**Ali məktəb:** Bakı Slavyan Universiteti

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Hal- hazırda Sumqayıt şəhərində yaşayıram və Bakı Slavyan Universitetində İngilis dili müəllimliyi ixtisasında 4-cü kursda təhsil alıram. 6 nəfərdən ibarət ailəmlə birlikdə uzun illərdir ki, kirayə mənzildə yaşayırıq. Karyeramla bağlı ilk hədəfim universiteti bitirdikdən sonra Azərbaycanın ucqar kəndlərində mövcud olan məktəblərdə müəllim kimi çalışmaqdır. Düşünürəm ki, xüsusən rayonlarda yenilikçi müəllimlərə ehtiyac vardır. Son illərdə qız uşaqlarının erkən yaşda nikaha cəlb edilməsi, onların istismarı məni

çox narahat edir. Bu səbəbdən ilk hədəfim orada yaşayan qızların təhsilində rol oynamaqdır. Burada öz vəzifəmi yerinə yetirdikdən sonra təhsilimi xarici ölkələrin birində davam etdirmək istəyirəm. Təhsilimi bitirdikdən sonra yenidən öz ölkəmə qayıdaraq ən böyük məqsədim olan ehtiyaclı tələbələrin təhsil haqqı üçün təqaüd proqramı hazırlayacaq və onu reallaşdıracağam. Bu yolda mənim ən böyük motivasiya mənbələrimdən biri ŞQTP oldu.

**Sevinc Əliyeva**

**Şəhər/Rayon:** Bakı şəhəri

**Ali məktəb:** Azərbaycan Dövlət Rəssamlıq Akademiyası

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Hal hazırda təhsilimi Azərbaycan Dövlət Ressamlıq Akademiyasında dekorativ tətbiqi sənət fakültəsinin bədii xalça ixtisasında (Sabah qruplarının) 4-cü kurs tələbəsi olaraq davam etdirirəm. İlk növbədə uğurlu bir diplom mudafiəsinə hazırlaşıram. Daha sonra Magistr pilləsinə yüksəlmək üçün hazırlaşacam. Ümid edirəmki, uğurla nəticələnər və magistraturanı öz ixtisasım üzrə bitirdikdən sonra sənətşünaslıq ixtisası üzrə magistr təhsil almağı planlayıram. Ən böyük arzum isə öz ixtisasım üzrə həm təhsilim, həm də özümü ən ali dərəcəyə çatdırmaqdır, hansı ki doktorantura dərəcəsində ixtisasımı müdafiə edib bu dərəcəyə çatmaq istəyirəm. Beləliklə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında müəllim vəzifəsində çalışmaq, öz müəllimlərimdən öyrəndiklərimi gələcək nəsillərlə bölüşmək və xalça sənətinin ölkəmizdə inkişafında bir rolumun olmağını arzulayıram.

**Əminə Məmmədova**

**Şəhər/Rayon:** Bakı şəhəri

**Ali məktəb:** Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Bərdə rayonu, Şahvəlilər kəndində anadan olsam da, orta təhsilimi Ağdam rayon köçkün tam orta məktəbində almışam. Orta məktəbi bitirdiyim il Azərbaycan Dövlət Neft və Sənaye Universiteti Kimya mühəndisliyi ixtisasına daxil olmuşam və hal-hazırda 4-cü kurs tələbəsiyəm. Gələcək təhsilimi ixtisasımı daha dərindən öyrənməklə maraqlı olaraq magistr təhsili almağı düşünürəm. Planlarımın içərisində xarici dili öyrənib xaricdə daha çox peşəkarlıq qazanmağım üçün təhsil almağa getmək də var. Karyera planlarımda hər zaman yeni biliklər öyrənmək, bacarıqlar kəşf etmək olacaq.

**Gülcahan Məmmədova**

**Şəhər/Rayon:** Bakı şəhəri

**Ali məktəb:** Bakı Dövlət Universiteti

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** 2006-cı ildə atamın vəfatından sonra anam məni və iki bacımı tək böyüdüb. Çətinliklərə baxmayaraq, 2018-ci ildə məktəbi bitirdikdən sonra Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinə (ödənişli əsaslarla) qəbul ola bildim. Hal hazırda 4-cü kurs tələbəsiyəm. 2-ci kursda AzTV-də praktika keçəndən sonra televiziya sahəsinə böyük marağım yaranıb. Gələcəkdə televiziya sahəsində ölkəmi daha yaxşı təmsil etmək istəyirəm. Bununla yanaşı, müasir dövrlə ayağlaşmaq üçün sosial şəbəkələrdə (YouTube, Instagram) öz kanalımı açmaq istəyirəm. Bununla həmçinin dünyaya açıla bilərəm. Gələcəkdə YouTube kanalında müxtəlif sahələrə aid video çarxlar hazırlayaraq YouTube kanalımı daha da təkmilləşdirmək istəyirəm.

**Leyla Aydınova**

**Şəhər/Rayon:** Bakı

**Ali məktəb:** Azərbaycan Dövlət Aqrar Universiteti

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Maddi və mənəvi dəstəyimin olmaması, orta məktəbin verdiyi biliyin zəif olması, inkişafdan kənar Gəncə mühiti mənim şəxsi və peşəkar sahələrdə geriliyimə səbəb olub. Nəhayət 2014-cü ildə, 30 yaşımda ali təhsilə başlaya bilsəm də, iqtisadi vəziyyət işsiz qalmağıma səbəb oldu. Hazırda təhsil haqqı borcumu ödəyib, diplomumu alıb xaricdə keyfiyyətli universitetlərdən birində mühasibatlıq/maliyyə sahəsində yüksək səviyyəli təhsil almaq istəyirəm. Azərbaycanda aldığım təhsilin kefiyyəti yetərli olmadığından hazırda özüm-özümə kömək edə bilmirəm. İstədiyim yüksək biliyi və itirdiyim illəri ancaq ixtiraçılar yetişdirən inkişaf etmiş ölkələrdə kompensasiya edə biləcəyimi düşünürəm.

**Şəfiqə Cümşüdzadə**

**Şəhər/Rayon:** Tərtər rayonu

**Ali məktəb:** Azərbaycan Dövlət Aqrar Universiteti

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** 2020-ci ildə Bərdə Dövlət İdarəetmə Texnologiya Kollecinin aqrar təsərrüfatın təşkili fakultəsini bitirdikdən sonra Azərbaycan Dövlət Aqrar Universitetinə qəbul oldum və hal-hazırda 2-ci kurs tələbəsiyəm (ödənişli əsaslarla təhsil alıram). Ailəmin maddi durumu səbəbilə həm işləyir, həm də dərslərimi oxuyuram. Atam rəhmətə getdiyi və anam 2-ci qrup əlil olduğu üçün 4 nəfərdən ibarət ailəmi maddi baxımdan dəstəkləmək mənim də üzərimə düşür. Gələcəkdə Azərbaycanda təhsilimi başa vurduqdan sonra xaricdə magistr təhsili almağı planlayıram. Cari işim gələcəkdəki məqsədlərimə çatmaq üçün gözəl təcrübədir. Bir gün özüm kimi ehtiyacı olan gənc qızlara kömək göstərmək istəyirəm.

**Aytac Ələkbərova**

**Şəhər/Rayon:** Bakı şəhəri

**Ali məktəb:** Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** 2017-ci ildə çox istəyərək daxil olduğum Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kino və Televiziya fakültəsi üzrə bakalavr təhsilimi 2021-ci ildə başa vurmuşam. Lakin təhsil borcum olduğu üçün məzun olmuş sayılmırdım. Bu illər ərzində ən yeni kino xəbərlərinin, təhlillərinin olduğu sayt qurmuşam. Eyni zamanda bir çox xəbər saytında da yazar olaraq könüllü fəaliyyət göstərmiş, bir çox peşəkarla tanış olub, onlardan məsləhətlər almışam. Bunlar mənim həm özüm, həm də işim üçün böyük motivasyalarım olub. Maddi çətinliklərə görə ümidimi hər şeydən üzmüşdüm desəm yanılmaram. ŞQTP mənə yenidən ümid oldu. Artıq yaxın gələcəkdə olan planlarımı reallaşdırmaq üçün hərəkətə keçirəm. Bunlardan biri xaricdə magistr təhsilimi alıb daha da peşəkarlaşmaqdır. Daha sonra ölkəmə geri qayıdıb, Kino və Televiziya sahəsini dirçəltmək üçün əlimdən gələni edəcəm. Bunları edəcəyimə inanıram və ŞQTP mənim kimi ehtiyacı olan gənc qızlara və qadınlara uğurlu gələcəyə gedən yolda köməklik göstərdikləri üçün təşəkkür edirəm.

**Təranə İmanova**

**Şəhər/Rayon:** Zaqatala rayonu

**Ali məktəb:** Azərbaycan Dövlət İqtisad Universiteti, Zaqatala filialı

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialında İnformasiya Texnologiyaları (İT) ixtisası üzrə sonuncu kurs tələbəsiyəm. Universiteti uğurla başa vurduqdan sonra magistr təhsili almağı düşünürəm. Maddi cəhətdən imkan olsa, təhsilimi xaricdə davam etdirmək istəyərəm. Fikrimcə, qadınların təhsilli olmasına daha çox ehtiyac var və mən də gələcəkdə öz ayaqları üzərində durmağı bacaran uğurlu bir iş adamı olmaq üçün əlimdən gələni edəcəyəm. Ümumiyyətlə, İT sahəsi üzrə mükəmməl biliklərə yiyələnmək ən böyük məqsədimdir və bunun alınması üçün çox çalışacağam. ŞQTP-ına layiq görülmək məni məqsədlərimə daha da yaxınlaşdırdı və inanıram ki, bundan sonra da məqsədlərimə addım-addım çatacağam. İnandıqdan sonra mümkün olmayacaq heç nə yoxdur.

**Natəvan Qəribova**

**Şəhər/Rayon:** Qusar şəhəri

**Ali məktəb:** Azərbaycan Dövlət Pedaqoji Universiteti

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Mən Azərbaycan Dövlət Pedaqoji Universitetində 4-cü kur tələbəsiyəm və korreksiyaedici təlim ixtisası üzrə təhsil alıram. Öz peşəm və psixologiya sahəsinə çox böyük marağım var. Universitet illəri ərzində çox fəal tələbə olmuşam. Beynəlxalq tədbirlər daxil olmaqla, fərqli təlimlərdə və konfranslarda iştirak edib sertifikatlar almışam. "Birinci Beynəlxalq Nitq Terapiyası Konfransı", "Milli Psixologiya Təlimi", "Autizm üzrə İkinci Beynəlxalq ABA Azərbaycan Konfransı" və digər tədbirlər vasitəsilə biliklər qazanıb gələcək karyera istiqamətimi müəyyən edə bilmişəm. İxtisasıma uyğun olaraq, iki il uşaq klubunda çalışmışam və əlilliyi olan uşaqlar üçün individual konsultasiyalar keçirmişəm. Gələcəkdə psixologiya üzrə magistr dərəcəsi almaq və bu sahədə özümü inkişaf etdirmək istəyirəm. Bu səbəbdən, ŞQTP komandasına mənə bu misilsiz imkanı verdiklərinə görə minnətdaram.

**Rahidə Bayramova**

**Şəhər/Rayon:** Tovuz rayonu

**Ali məktəb:** Bakı Dövlət Universiteti (Qazax filialı)

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Ailəmin maddi vəziyyəti səbəbindən təhsilimi davam etdirməyimdə maneələrlə üzləşmişəm. İnanıram ki, savadlı qadın savadlı cəmiyyətin əsaslarından biridir. Bunu nəzərə alaraq bakalavr proqramımı uğurla bitirdikdən sonra magistr dərəcəsi alacağımı ümid edirəm. Buna nail olmaq üçün böyük əzmlə dayanmadan çox çalışmalıyam. ŞQTP-nın təqaüdçüsü adına layiq görülməyim mənim üçün böyük bir motivasiya oldu. Məni seçib bu təqaüdə layiq gördüyünüz üçün sizə sonsuz təşəkkürlərimi bildirirəm, həm özümün, həm də ailəmin adından. Bundan sonra ən böyük arzum bu dəyərə layiq olduğumu sübut etməkdir. Gələcəkdə özüm kimi ehtiyacı olan qızlara kömək edə bilmək və gənc qızlara həyat xətti atmaq istəyirəm.

**Səbinə Qədimova**

**Şəhər/Rayon:** Yevlax rayonu

**Təhsil müəssisəsi:** Kür Hazırlıq Mərkəzi

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Mən bir məcburi köçkün ailəsində doğulmuşam. 2005-ci ildə dünyaya gələndə heç vaxt görmədiyim kəndimiz Başlıbeldən (Kəlbəcər) illər əvvəl didərgin düşmüş ailəmlə Yevlax rayonunun Tanrıqulular kəndində bir uşaq bağçasında məskunlaşmışdıq. Yaşadığımız çətinliklər mənə bir şeyi öyrətdi: mən var gücümlə yaxşı oxuyub, ailəmə dəstək olmalı, ağır xəstəliklərdən əziyyət çəkən anamın müalicəsi üçün çalışmalıyam. Bu təqaüd mənə arzularıma çatmaq üçün ilk dəstəyi verdi. Gələcəkdə Tibb Universitetində təhsil almaq, daha sonra isə təhsilimi xaricdə davam etdirib, yaxşı həkim olmaq istəyirəm.

**Ləman İsgəndərli**

**Şəhər/Rayon:** Bakı şəhəri, Nizami rayonu

**Ali məktəb:** Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Gələcək məqsədim və planlarım sırasında ilk öncə təhsilimi qırmızı diplomla başa vurmaqdır. Həm də düşünürəm ki, ölkəmizdə idman sahəsində ixtisaslaşmış idman menecerlərinə ehtiyac çoxdur və bu sahə üzrə təhslimi davam etdirmək istəyirəm. Bu yolda ŞQTP vasitəsilə ilk böyük addımımı, uğurumu atmış oldum. Bu təqaüd hər iki ildə elə bir zamanda gəlib imdada yetdi ki, həqiqətən maddi baxımdan fərahlamaq, bir başqa psixoloji gərginlikdən dərslərə adaptasiya ola bilmirdim. Çox amma çox təşəkkür edirəm ŞQTP komandasına. Mən inanıram ki, mənim kimi təqaüdü qazanmış digər qızlar da Şəhla xanım kimi təhsilə, qadına, gələcəyə yönəlik böyük addımlar atıb töhfə verəcəyik. Təşəkkür edirəm, ŞQTP ailəsi!

**Zəhraxanım Quluzadə**

**Şəhər/Rayon:** Bakı şəhəri

**Ali məktəb:** Azərbaycan Dövlət Rəssamlıq Akademiyası

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** 5-ci sinifdən mənim yolum rəssamlıqla kəsişib. O gündən yerli, xarici sərgilərdə, layihələrdə iştirak etmişəm. Hal-hazırda Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında rəngkarlıq ixtisasında təhsil alıram. 2019-cu ildə Türkiyədə Femin Art-ın iştirakçılarından biri olmuşam. Karantinin müsbət təsiri isə məni Digital Artla tanış etməsi və biliklərimi artırmağıma kömək etməsi oldu. Gələcəklə bağlı planım xaricdə animasiya ilə bağlı təlimlər, təcrübələr keçmək və magistr təhsilimi o yöndə almaqdır. Disney kimi şirkətlərdə concept artist kimi işləməyi planlayıram.

**Fidan Mikayılova**

**Şəhər/Rayon:** Bakı şəhəri

**Ali məktəb:** Azərbaycan Dövlət İqtisad Universiteti

**Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir?** Bu yaşıma qədər əldə edə biləcəkləri və etdiklərim öz əziyyətim öz çabam sayəsində olub. Özümü əmin addımlarla gələcəyə hazırlamaq üçün əlimdən gələnin artığını edirəm, edəcəm. Gələcək mənim üçün parlaq və günəş kimi işıq saçmalıdı. İndiki əziyyətlərimi gələcəkdə bəhrə olaraq dadmalıyam. Buna görə də heç nədən vazkeçmirəm. Gələcəklə bağlı o qədər gözəl planlarım, fikirlərim var ki... Özümə çox güvənirəm bu barədə. İlk öncə bakalavr təhsilimi bitirib magistr təhsili üçün xaricə getməyi düşünürəm. Bəynəlxaq münasibət və ya audit kimi önəmli ixtisaslarda formalaşmaq istəyirəm.



SGSP

Shahla Garayeva Scholarship Program